# “Neft Daşları”nda anım tədbiri

**Dünən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) “Azneft” İstehsalat Birliyinin (İB) “28 May” Neft və Qaz Çıxarma İdarəsinə (NQÇİ) məxsus “Günəşli” yatağının 10 saylı platformasında və “Neft Daşları”ndakı 501 saylı dəniz özülündə ötən il dekabrın 4-də təbii fəlakət nəticəsində baş vermiş qəza zamanı həlak olan və itkin düşən neftçilərin əziz xatirəsi anıldı.**
















Çilov adasında keçirilən anım mərasimində iştirakçılar əvvəlcə 1997-ci ildə helikopter qəzası nəticəsində həlak olmuş neftçilərin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri düzdülər. Mərasimdə çıxış edən “28 May” NQÇİ-nin sosial məsələlər üzrə rəis müavini Mətləb Qarayev, eləcə də NQÇİ-nin Həmkarlar İttifaqı Komitəsinin sədri Emin Məmmədov və başqaları “Günəşli” yatağındakı 10 saylı və “Neft Daşları”ndakı 501 saylı özüldə baş vermiş qəzalar zamanı itkin düşən və həlak olan neftçilərin yaxınlarına, doğmalarına səbr dilədilər.

“Neft Daşları”nda iştirakçılar ilk olaraq 1957-ci il noyabrın 21-də baş vermiş faciə zamanı həlak olanların xatirəsinə ucaldılmış abidənin önünə gül dəstləri düzdülər. Sonra 501 saylı dəniz özülündə qəza nəticəsində həlak olmuş və itkin düşmüş neftçilərin xatirəsini bir dəqiqəlik sükutla yad edərək dənizə gül dəstələri atdılar.

“Neft Daşları” NQÇİ-nin rəisi Qoçəli Mahmudov neftçilər qarşısında çıxış edərək həlak olan və itkin düşənlərin ailələrinə başsağlığı verdi: “İstər “Neft Daşları”nda, istərsə də “Günəşli” yatağında baş verən hadisə çox böyük bir təbii fəlakətdir, faciədir. Mən 23 ildir “Neft Daşları”nda işləyirəm, nə “Neft Daşları”nda, nədə dənizdə belə bir hadisə görülməmişdi. Bu xəbər bizimlə bərabər bütün Azərbaycan xalqını sarsıtdı. Uzun illərdir bir yerdə işlədiyimiz, özümüzə yaxın bildiyimiz iş yoldaşlarımızı itirmək biz neftçilər üçün isə ikiqat ağır hadisədir. Bütün həlak olanların, itkin düşənlərin ailələrinə, yaxınlarına səbr diləyirik, möhkəm olmağa çağırırıq. Bu elə bir hadisədir ki, dənizdə olan hər bir şəxsin başına gələ bilər. Heç kim təbii fəlakətdən sığortalanmayıb. Doğmalarını itirmək hər bir insan üçün olduqca ağırdır. Onların ağrısını, acısına hamımız qəlbən şərik oluruq”.

SOCAR-ın Nəqliyyat İdarəsinin rəis müavini Yusif Hacıyev də çıxış edərək öz fikirlərini bölüşdü: “Bildiyiniz kimi, ötən il dekabrın 4-də Xəzər dənizində baş verən küclü küləyin və hündürlüyü 10 metrə çatan dalğaların nəticəsində “Neft Daşları”nın 501 saylı özülündə yaşayış köşkü qoparaq dənizə düşüb. Hadisə zamanı Nəqliyyat İdarəsinin 3 nəfər əməkdaşı - Məmmədov Rövşən Nadir oğlu, Cəfərov Bəhmən Nadir oğlu və Xudaverdiyev Cavad Xudaverdi oğlu köşklə birlikdə dənizə düşüblər. Bundan sonra Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin helikopterləri əraziyə cəlb olunaraq axtarış işlərinə başlayıblar. Lakin güclü külək xilasedicilərə axtarışları lazımi səviyyədə aparmağa imkan verməyib. Axtarış əməliyyatlarının bu gün də davam etdirilməsinə baxmayaraq həlak olanların cəsədlərini tapmaq mümkün olmayıb. Həlak olan əməkdaşlar kollektivdə böyük hörmətə sahib idilər və hər biri ailə başçısı idi. Bu çox böyük itkidir. Mən Nəqliyyat İdarəsinin rəhbərliyi və öz adımdan itkin düşən əməkdaşların ailə üzvlərinə, yaxınlarına, dostlarına səbr diləyirəm. Bildirmək istəyirəm ki, hər zaman onlara mənəvi dayaq olacağıq”.

**✍ Taleh Bağırov,**
**Vüsal Cahanov, (Foto)**
***“İki sahil”***